**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**
**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)**

**Təsdiq edirəm**
**“Biznes və logistika” kafedrasının**
**müdiri: dos. Əliyev M.Ə.**
**05 sentyabr 2024/2025-ci tədris ili**

**“Təşkilat nəzəriyyəsi” fənni üzrə**
# İŞÇİ TƏDRİS PROQRAMI (Sillabus)

## I. Fənn haqqında məlumat

| | |
|---|---|
| **Fənnin kodu:** | **00880** |
| **Fənnin növü:** | **əsas** |
| **Tədris ili:** | **2024/2025** |
| **Tədris semestri:** | **Yaz** |
| **Fakültə:** | **Biznes və menecment** |
| **Qrup:** | **2978** |
| **Tədris yükü:** | **20 saat (mühazirə/məşğələ -20/-)** |
| **Kredit sayı:** | **6 (altı)** |
| **Kafedra:** | **Biznes və logistika** |

## II. Müəllim haqqında məlumat


| | |
|---|---|
| **Fənni tədris edən müəllim:** | **Prof. Rövşən Muradov** |
| **E-mail ünvanı:** | **rovshan1970@hotmail.com** |
| **İş telefonu:** | (012) 440 05 62, ( 012) 441 65 21 |
| **Tələbələr üçün qəbul vaxtları:** | **çümə günləri, saat 11:00-13:00** |


## III. Fənnin təsviri

Müasir dünya iqtisadi sistemi bütün onun subyektlərinin fəaliyyət xüsusiyyətlərini müəyyən edən yaxın spesifik cəhətlərlə səciyyələnir. Bu belə cəhətlərdir ki, necə: həmcins standartlaşdırılmışın yüksək tutumlu məhsul və xidmətlərlə; xarici sahibkar mühitinin amillərinin qeyri-sabitinin gücləndirilməsi; tələbatların elmi ağırlıqlı mallara və xidmətlərə tərəf istehlakçıların üstün tutulmalarının keyfiyyətli dəyişikliyi; idarəetmə qərarlarının qəbuluna və yeni şəraitə uyğunlaşmaya vaxtın əhəmiyyətli ixtisarı; həmçinin əlavə resursların cəlb edilməsi üçün şirkət daxili imkanların məhdudluğu çərçivəsində idarəetmə prosesi öyrənilir.

Son onilliklərdə cəmiyyətin inkişafının əsas hərəkətverici qüvvələrindən biri kimi təşkilatın öyrənilməsi bir çox elmlərin nümayəndələrinin əsas vəzifəsinə çevrilmişdir. Təşkilat sosial psixologiya, sosiologiya, siyasətşünaslıq, idarəetmə nəzəriyyəsi, iqtisadi nəzəriyyə, kompüter elmi, hüquq elmləri və s. Çərçivəsində tədqiq edilmişdir. Nəhayət, təşkilatın öyrənilməsi müstəqil bir elmi bilik bölməsində - təşkilat nəzəriyyəsində formalaşdı.

Təşkilat nəzəriyyəsinin formalaşmasında ictimai hadisələr nəzəriyyəsi (I. Plenge, T. Katarbinsky), əməyin təşkili və idarəedilməsi (A. Fayol, M. Weber, A. Gastev), bioloji təşkilat nəzəriyyəsi (D. Haldane, İkskühl), ümumi sistem nəzəriyyəsi (L. Von Bartalanffy) və kibernetika (N. Wiener) sahəsindəki elmi tədqiqatların böyük rolu olub. Təşkilat nəzəriyyəsinə dair tanınmış elm xadimləri Con Roberts, P.Druker, T.A. Akimova, A.F. Barannikova, L. A. Deduşeva, P.G. Qribov, B.Z. Milner., Prof.Dr. Fiadi Can Saruhan, Doç.Dr. M. Leyla Yildiz, S.B. Avdaşeva, N.M. Rozanova və başqalarının əsərləri fənni geniş və keyfiyyətli şəkildə tədrisini həyata keçirməyə imkan verir.

Beləliklə, təşkilat nəzəriyyəsi təbiət, texniki və sosial elmlərin kəsişməsində yaranan və təşkilat nəzəriyyəsinə müxtəlif yanaşmaları təyin edən fənlərarası bir məlumat sahəsidir

Aktual olan bu şəraitində şirkətlərin rəqabətə davamlılığının əsas amillərinin ayrılması problem olur. Bu biznesin dəqiq cəmləşdirməsi, fəaliyyətin və yüksək innovasiya fəallığının qloballaşmasına zərurət yaradır.

## IV. Fənnin məqsədi və vəzifələri

Kursun tədrisində məqsəd tələbələrə müxtəlif bazar tipləri şəraitində təşkilatlar nəzəriyyəsinin təşkili və qərar qəbuletmə xüsusiyyətlərini dərk etməyə və anlamağa yardım etmək, nəzəri bilikləri və praktiki alətləri birləşdirməklə tələbələrdə təşkilatlar nəzəriyyəsi sahəsində analitik təhlil bacarıqları formalaşdırmaqdır.

Fənnin tədrisi qarşısında duran vəzifələr aşağıdakılardır:

- təşkilatlar nəzəriyyəsi, onu predmeti, məzmunu və vəzifələri barədə tələbələrdə tam təsəvvür formalaşdırmaq;
- təşkilatların mahiyyəti, modelləri, təsinifatı, xüsusiyətləri ilə bağlı əsas elmi yanaşmaları tələbələrə təqdim etmək;
- təşkilatın əsas qanunları, daxili və xarici mühiti, təşkilati strukturun qurilması, layihələndirilməsi, qiymətləndirlməsi barədə tələbələriə biliklər vermək;
- təşkilati mədəniyyət, onun funksiyaları, təşkilati mədəniyyətin qorunması və dəyişdirilməsi üsulları, elə cə də təçkilastlarda kommunikasiya, onun növlər, prinsipləri haqda tələbələrə bilgi vermək;
- təşkilatlarda idaretmə qərarlarını qəbulu, onun mərhələləri, metodları, qərarların qıəbul edilməsində istifadə edilən modellər bardə tələbərin elmi biliklərə yiyələnməsini təmin etmək.
- təşkilatların idarə edilməsi, keyfiyyətli strukturun və partnyorluğun qurulması sahəsində tələbələrə zəruri bacarıq və qabiliyyətlərin aşılanması.

## V. Fənnin tədris metodologiyası

Bu fənnin tədrisi prosesində mühazirələrin oxunması, interaktiv müzakirələrin aparılması, komanda şəklində layihələrin icrası, kiçik qruplarda iş, işgüzar oyunlar, xüsusi nümunələrin (keys-stadilər) öyrənilməsi və təhlili, esse yaxud sərbəst işlərin yazılması və test tapşırıqların yerinə yetirilməsi kimi geniş çeşiddə tədris və təlim üsullarından istifadə edilir.

Bundan əlavə tədris və təlim prosesində xarici və yerli iqtisadi ədəbiyyatdan, habelə beynəlxalq və yerli mediadan (internet resurslarından) götürülmüş məqalələrin, real

nümunələrin və xüsusi keyslərin təhlilinə, müzakirəsinə və məntiqi nəticələr çıxarılmasına xüsusi diqqət ayrılacaq. Verilən biliklərin tətbiqi bacarıqlarının formalaşdırılması üçün tələbələr mövzuya uyğun seçilmiş tapşırıqları həll edəcəklər.

Hər bir yeni mövzunun tədrisi öncəsi tələbələr müəyyən olunmuş mətnləri və onlara təqdim edilmiş (tapşırılmış) digər qiraət materialları ilə tanış olmalıdırlar.

## VI. Öyrənmənin nəticələri:

Kursun tədrisi başa çatandan və bütün mövzular mənimsənildikdən sonra tələbələr:

**Bilməlidirlər:**

- təşkilatlar nəzəriyyəsin mahiyyətini;
- təşkilatlar nəzəriyyəsinin, predmetin, məzmununu, vəzifələrini;
- təşkilatların mahiyyətini, modellərini, təsnifatını, xüsusiyyətlərini;
- təşkilatları daxili və xarici mühitini, onlara təsir edən amilləri;
- təşkilatların əsas və ikinci dərəcəli qanunlarını;
- təçkilati strukturun qurulması, layij=həlendirilməsini;
- təşkilati mədəniyyətin və təşkilatlarda kommunikasiyanın əhəmiyyətin;
- təçkilatlarda idaretmə qərarlarını və onların hazırlanması modellerini;
- təşkilatlarda işgüzar karyeranın və səmərəli adaptasiya mexanizmlərinin hazırlanmasını.

**Bacarmalıdırlar:**

- təşkilatlar nəzəriyyəsinə dair yanaşmaları fərqləndirməyi;
- təşkilatların qurulm nəzəriyyəsində səmərəlilik amillərini qiymətləndirməyi;
- təşkilatlar nəzəriyyəsində təşkilat quruluşunu təhlil etməyi və qiymətləndirməyi;
- təşkilatlar nəzəriyyəsində iqtisadi göstəricilərini hesablamağı və konkret sahələrə tətbiq etməyi;
- təşkilatlar nəzəriyyəsində işgüzar davranışlarının analitik modellərini işləməyi;
- təşkilatlar nəzəriyyəsində qərarqəbuletmə modellərini qurmağı.

## VII. Prerekvizitlər

Yoxdur.

## VIII. Fənnin mühazirə mövzuları

Fənn 15 mühazirə mövzusundan ibarətdir. 15 mövzunun hər birinə 4 saat (2 saat mühazirə və 2 saat seminar-məşğələ olmaqla) vaxt ayrılır.

1. Təşkilat nəzəriyyəsi, onun predmeti, vəzifələri, obyekti və əsas məsələləri
2. Təşkilatların mahiyyəti, modelləri, təsinifatı, xüsusiyətləri, rəsmi və qeyri-rəsmi təşkilatlatar
3. Təşkilatların daxili mühiti
4. Təşkilatların xarici mühiti
5. Təşkilatların əsas qanunları
6. İkinci dərəcəli təşkilat qanunları
7. Təşkilati strukturun qurulması
8. Təşkilati mədəniyyət
9. Təşkilatlarda kommunikasiya
10. Təşkilatlarda qərarlarin qəbulu sistemi və modelləri
11. Təşkilatlarda işgüzar karyeranın təşkili və adaptasiya mexanizminin qurulması
12. Təşkilati fəaliyyətin rasionallaşdırılması, Dinamik və statik təşkilatlar

13. Təşkilatlarda insan resurslarının idarə edilməsi məsələləri.
14. Müasir dövrdə təşkilatların idarə edilməsi problemləri
13. Gələcəyin təşkilatları

## X. Fənnin mühazirə mətnləri

Fənnin bütün mövzuları üzrə mühazirə mətnləri, müzakirə sualları və tapşırıqlar, habelə müxtəlif növ məşğələ materialları elektron formatda Universitetin saytında "Virtual universitet" bölməsində (unec.edu.az) yerləşdirilir.

## III. Tələb olunan dərsliklər və dərs vəsaitləri

**Əsas ədəbiyyat:**


1. Баранникова А. Ф., Теория организации, М, ЮНИТИ-ДАНА, 2019.
2. Дедушева Л.А., Грибов П.Г. Общая теория организации. МГИУ,220
3. Иванова Т.Ю., Теория организации, М, Кнорус, 2016.
4. Мильнер Б.З., Теория организации, М, Инфра-М, 2010г.

**Əlavə ədəbiyyat:**

**1.** Axundov M.A. Strateji idarəetmə. Dərs vəsaiti. Bakı 2001
**2.** Şahbazov K.A., H.S. Həsənov, M.H. Məmmədov, Menecment 2007
**3.** Atakişiyev M.C. İnnovasiya menecmenti, Bakı 2004
**4.** Tofiq Quliyev Menecmentin əsasları, Bakı 2006
**5.** Асват Демодаран. Стратегический риск-менеджмент: принципы и методики. Пер. с англ. М.: Вильямс. 2010,
**6.** Друкер П. Менеджмент в некоммерческой организации. Пер. с англ. М.: Вильямс. 2007. - 304 с
**7.** Мильнер Б. З. Теория организации : учебник / Б. З. Мильнер.— 8-е изд., перераб. и доп.— М. : ИНФРА-М, 2013.— 848 с.
**8.** Смирнов Э. А. Теория организации : учебное пособие / Э.А. Смирнов.— М. : ИНФРА-М, 2013.— 248 с.3. Иванова Т.Ю. Теория организации : учебник / Т.Ю. Иванова.—М. : КноРус, 2012.— 427 с.
**9.** Лапыгин Ю.Н. Теория организации и организационное повеение : учебное пособие / Ю.Н. Лапыгин.— М. : ИНФРА-М, 2011.— 329 с.
**10.** Адизес И. Управление жизненным циклом корпорации / И. Адизес.— М. : Манн, Иванов и Фербер, 2013.
**11.** Адизес И. Управляя изменениями / И. Адизес.— М. : Манн, Иванов и Фербер, 2013.
**12.** Баринов В. А. Организационное проектирование : учебник / В.А. Баринов.— М. : ИНФРА-М, 2010.— 384 с.
**13.** Лэйхифф Дж. М., Пенроуз Дж. М., "Бизнес- коммуникации", "Питер", СПб, 2001.
**14.** Д.А. Аширов, "Организационное поведение", Проспект, 2006.
**15.** Э.А.Смирнов, Теория организации, Москва, РИОР, 2012.
**16.** Парахина В.Н. Теория организации : учеб. пособие / В.Н. Парахина, Т. М. Федоренко. — 5-е изд., стер. — М. : КноРус, 2010.— 296 с.
**17.** Яськов Е.Ф. Теория организации / Е.Ф. Яськов.— М. : ЮНИ-ТИ-ДАНА, 2010.— 272 с
**18.** Богданов А.А. Всеобщая организационная наука (тектология) / А.А. Богданов.– М., 2012.

**19.** Франчук В. И. Общая теория социальных организаций / В. И. Франчук.– М., 2011
**20.** Франчук В. И. Основы построения организационных систем / В. И. Франчук.– М., 2012.
**21.** Холл Р. Организации: структуры, процессы, результаты / Р. Холл.– СПб., 2011.
22. Щербина В. В. Социальные теории организаци : словарь / В.В. Щербина.– М., 2010.
23. Иванова Т.Ю., Приходько В.И. Теория организации. Учебник. 2004.

Hər bir mövzu ilə bağlı əlavə ədəbiyyat və oxu materialları mühazirədə qeyd olunur.

## XI. Mövzuların məzmunu və tədris-tematik bölgüsü

## FƏNN MÖVZULARI VƏ MƏQSƏDLƏR

| Həftə | Mövzuların adı | Mövzunun əsas məzmunu | Ədəbiyyat |
|---|---|---|---|
| 1 | Təşkilat nəzəriyyəsi, onun predmeti, vəzifələri, obyekti və əsas məsələləri | İdarəetmə anlayışı, müasir dövrdə onun əhəmiyyəti, idarəetmənin tarixi inkişaf mərhələləri. Təşkilat nəzəriyyəsinin predmeti, vəzifələri, metodologiyası. Təşkilat - təşkilat nəzərəyisəininin obyekti kimi, onun xüsusiyyətləri, cəmiyyətin həyatında təşkilatın rolu. Təşkilat nəzəriyyəsinin qarşısında duran əsas məələlər və müxtəlif yanaşmalar | 1. Владимир Веснин: Теория организации. Учебник, Издательство: Проспект, 2022 г.2.<br>2. Л. Семиков, В. Д. Ушаков Теория организаци Москва 2010,<br>3. Айдын Самедов, Теория Организации (организационно-управленческие аспекты коммерческих организаций, Baku-2012.<br>4. Prof.Dr. Sadi Can Saruhan , M. Leyla Yildiz və başqaları, İşletme Yönetimi, Aanadolu ün‹versitesi, 2014 |
| 2 | Təşkilatların mahiyyəti, modelləri, təsinifatı, xüsusiyətləri, rəsmi və qeyri-rəsmi təşkilatlatar | Təşkilatların mahiyyəti və modelləri. Təşkilatın xüsusiyyətləri. Təşkilatın məqsədlərinə görə təsnifatı, tipologiyası. Sosial təşkilatlar, onların xüsusiyyətləri, təsnifatı və məqsədləri. Rəsmi və qeyri-rəsmi təşkilatlatar. Qeyri-rəsmi təşkilatların yaranmasının əsas səbəbləri.. Formal qrupların fəaliiyətinin məzmunu, xarakterik xüsusiyyətləri xüsusiyyətləri | 1. Владимир Веснин: Теория организации. Учебник, Издательство: Проспект, 2022 г.2.<br>2. Л. Семиков, В. Д. Ушаков Теория организаци Москва 2010,<br>3. Акимова Т.А. Теория организаций. М.: ЮНИТИ-ДАНА. 2005, - 367 с. |

| | | | |
|---|---|---|---|
| **3** | Təşkilatların daxili mühiti | Təşkilatların daxili mühiti anlayışı, ona təsir edən amillər. Məqsədlər təşkilatların fəaliyyətininin təşkilinin əsas amili kimi. .Təşkilati struktur, onun formaları, layihələndirilmə prosesinin mərhələləri. Təşkilatın vəzifələri, onun kateqoriyaları, ixtisaslaşma. Texnologiya təşkilatların daxili mühitinin amili kimi, onun təsnifatı. İnsanlar təşkilatın idarəetmə sistemində mərkəzi amil kimi, daxili mühitin dəyişəni kimi onları fərqləndirən xüsusiyyətlər. Daxili mühitin dəyişən amillərinin ilə bağlı baxışlar | 1. Акимова Т.А. Теория организаций. М.: ЮНИТИ-ДАНА. 2005, - 367 с.<br>2. Баранникова А. Ф., Теория организации, М, ЮНИТИ-ДАНА, 2019.<br>3. Дедушева Л.А., Грибов П.Г. Общая теория организации. МГИУ,220<br>4. Иванова Т.Ю., Теория организации, М, Кнорус, 2016.<br>5. Владимир Веснин: Теория организации. Учебник, Издательство: Проспект, 2022 г. |
| **4** | Təşkilatların xarici mühiti. | İqtisadi qanunlar və prinsiplərin mahiyyət. İqtisadi elmlərin və idarə etmə iqtisadi qanunların əlaqələri. İdarəetmə elminin qanunları. İqtisadi qanunların fəaliyyət mexanizmi. | 1. Акимова Т.А. Теория организаций. М.: ЮНИТИ-ДАНА. 2005, - 367 с.<br>2. Дедушева Л.А., Грибов П.Г. Общая теория организации. МГИУ,220<br>3. Владимир Веснин: Теория организации. Учебник, Издательство: Проспект, 2022 г. |
| | Təşkilatların əsas qanunları | Sosial qanunların xüsusiyyətləri;.Təşkilatların fəaliyyətində risk anlayışı, xarakterik xüsusiyyətləri, növləri, risklərin idarə edilməsi;. Sinerji qanunu; Təşkilatların ən zəif elementi qanunu; Özünüqoruma qanunu; Təşkilatlarda tarazlıq və sabitlik; Ontogenez qanunu, sosial təşkilatın inkişaf istiqamətləri və mərhələləri | 1..Владимир Веснин: Теория организации. Учебник, Издательство: Проспект, 2022 г.<br>2.Л. Семиков, В. Д. Ушаков Теория организаци Москва 2010,<br>3. Акимова Т.А. Теория организаций. М.: ЮНИТИ-ДАНА. 2005, - 367 с. |

| | | | |
|---|---|---|---|
| **6** | İkinci dərəcəli təşkilat qanunları | İnformasiya və nizamlılıq qanunu; Analiz və sintezin vəhdəti qanunu; Kompozisiyalar qanunu, missiya və viziya anlayəşları; Proporsionallıq (mütənasiblik) qanunu; Təşkilatın qanunlarının tətbiqi | 1. Владимир Веснин: Теория организации. Учебник, Издательство: Проспект, 2022 г.<br>2. Л. Семиков, В. Д. Ушаков Теория организаци Москва 2010,<br>3. Акимова Т.А. Теория организаций. М.: ЮНИТИ-ДАНА. 2005, - 367 с.<br>4. Prof.Dr. Sadi Can Saruhan , M. Leyla Yildiz və başqaları, İşletme Yönetimi, Aanadolu ün‹versitesi, 2014 |
| **7** | Təşkilati strukturun qurulması | Təşkilati layihələndirmənin mahiyyəti və mərhələləri, modelləşdirmə və ekspertiza; Təşkilat strukturunun layihələndirilməsi faktorları; Təşkilatın lahiyələndirilməsində iş texnologiları, təşkilat strategiyası; Təşkilati strukturun layihələndirilməsinin elementləri; Təşkilatlarda liderin idarəetmə miqyası, ierarxik səviyyələri, hüquq və vəzifələrin bölüşdürülməsi; Təşkilatlarda mərkəzləşdirmə və qeyri-mərkəzləşdirmə, fərqləndirmə və inteqrasiya; Təşkilati strukturun layihələndirilməsi üsulları, təşkilati və funksional modelləşdirmə; Təşkilati strukturun layihələndirilməsi mərhələləri | 1. Владимир Веснин: Теория организации. Учебник, Издательство: Проспект, 2022 г.<br>2. Л. Семиков, В. Д. Ушаков Теория организаци Москва 2010,<br>3. Акимова Т.А. Теория организаций. М.: ЮНИТИ-ДАНА. 2005, - 367 с.<br>4. Prof.Dr. Sadi Can Saruhan , M. Leyla Yildiz və başqaları, İşletme Yönetimi, Aanadolu ün‹versitesi, 2014 |

| | | | |
|---|---|---|---|
| **8** | Təşkilati mədəniyyət | Təşkilat mədəniyyətinin mahiyyəti və xüsusiyyətləri; Təşkilati mədəniyyəti səciyyələndirən funksiyalar; .Təşkilat mədəniyyətin təsnifatı, subyektiv və obyektiv mədəniyyət; W. Hallın korporativ mədəniyyətin əlifbası, Handy və Ouçinin təsnifatı; Təşkilati mədəniyyətin qorunması və təşkilatın imici; Təşkilati mədəniyyətin dəyişdirilməsi üsulları, dəyişikliklərin davranışa təsiri; Təşkilati mədəniyyətdə müasir informasiya texnologiyalarının rolu. | 1. Дедушева Л.А., Грибов П.Г. Общая теория организации. МГИУ,220<br>2. Иванова Т.Ю., Теория организации, М, Кнорус, 2016.<br>3. Владимир Веснин: Теория организации. Учебник, Издательство: Проспект, 2022 г.<br>4. 1.Акимова Т.А. Теория организаций. М.: ЮНИТИ-ДАНА. 2005, - 367 с. |

| | | | |
|---|---|---|---|
| **9** | Təşkilatlarda kommunikasiya | Kommunikasiya və ünsiyət anlayışı, kommunikasiya bir fenomen və proses kimi; Təşkilatlarda kommunikasiya prosesinin mərhələləri, kommunikasiyanın effektivliyi amilləri; Kommunikasiya prosesinin növləri, prinsipləri; Təşkilatda və ya qrupda kommunikasiya prosesinin funksiyaları, kommunikasiyanı vacib edən səbəblər; Şəxsiyyətdaxili, şəxslərarası, və ictimai ünsiyyət; Təşkilatla ətraf mühit arasında kommunikasiyalar, təşkilat daxilində şaquli və üfiqi kommunikasiyalar; Rəhbərlərlə işçilər arasında kommunikasiyalar; Qeyri-formal kommunikasiyalar; Verval və qeyri-verbal kommunikasiya, yazılı ünsiyyət və elektron rabitə | 1. Акимова Т.А. Теория организаций. М.: ЮНИТИ-ДАНА. 2005, - 367 с.<br>2. Баранникова А. Ф., Теория организации, М, ЮНИТИ-ДАНА, 2019.<br>3. Дедушева Л.А., Грибов П.Г. Общая теория организации. МГИУ,220<br>4. Иванова Т.Ю., Теория организации, М, Кнорус, 2016.<br>5. Владимир Веснин: Теория организации. Учебник, Издательство: Проспект, 2022 г. |
| **10** | Təşkilatlarda qərarlarin qəbulu sistemi və modelləri. | Təşkilatlarda idarəetmə qərarının zəruriliyi, məzmunu və mahiyyəti; İdarəetmə qərarlarının əsas fərqləndirici xüsusiyyətləri və aspektləri, qərarlara coxaspektli yanaşma; Təşkilatlarda idarəetmə qərarlarına qoyulan tələblər; Təşkilatlarda qərarların hazırlanması və qəbul edilməsi mərhələləri. Təşkilatlarda idarəetmə qərarlarının qəbulunda istifadə edilən modellər; İdarəetmə prosei kimi modelin qurulma mərhələləri; . İdarəetmə qərarlarının qəbulu üzrə standart modellər | 1. Şahbazov K.A., Məmmədov M.H., Həsənov H.S. Menecment. Bakı: «Təhsil» EİM, 2005. (fəsil 6);<br>2. Quliyev T. Ə. Menecmentin (idrəetmənin) əsasları. Bakı: «Nağıl evi» nəşriyyatı, 2001. (fəsil 13);<br>3. Акимова Т.А. Теория организаций. М.: ЮНИТИ-ДАНА. 2005, - 367 с.<br>4. Баранникова А. Ф., Теория организации, М, ЮНИТИ-ДАНА, 2019. |

| | | | |
|---|---|---|---|
| **11** | Təşkilatlarda işgüzar karyeranın təşkili və adaptasiya mexanizmin in qurulması | Karyera anlayışı, onun mərhələləri, şəxsin karyera keçişləri, karyeranın növləri; .İşgüzar karyera, onun inkişafı və planlaşdırılması mərhələləri; .İnsan resurslarının idarə edilməsində karyera sisteminin formalaşması mexanizmi. Təçkilatlarda heyətin idarə edilməsində işgüzar adaptasiyanın mahiyyəti və məzmunu,adaptasiya proqramlarının məqsədi. Təçkilatların səmərəli idarə edilməsində adaptasiya proqramının tətbiq olunma üsulları və əhəmiyyəti. | 1.Quliyev. T.Ə. /İnsan Resurslarının idarə edilməsi/ Bakı-2013.<br>2. Əmək bazarı və kadr hazırlığı problemləri. Elmi-praktiki konfransın materialları. Bakı, 2016.<br>4. E.Məmmədov.«Sirkətin heyətinə rəhbərlik». İqtisadi İslahatlar ET, Bakı-2000<br>5. Şahbazov K.A. Menecment (dərslik). «Təhsil» .Elm, Bakı, 2005 |
| **12** | Təşkilati fəaliyyətin rasionallaşdırılması, Dinamik və statik təşkilatlar. | Rasionallaşdırma prinsipləri; İdarəetmə və icra işinin keyfiyyətinin yüksəldilməsi; Yeni informasiya texnologiyalarının təşkilati fəaliyyətin rasionallaşdırılması proseslərinə təsiri | 1..Владимир Веснин: Теория организации. Учебник, Издательство: Проспект, 2022 г.<br>2. .Л. Семиков, В. Д. Ушаков Теория организаци Москва 2010,<br>3. Акимова Т.А. Теория организаций. М.: ЮНИТИ-ДАНА. 2005, - 367 с.<br>4. Prof.Dr. Sadi Can Saruhan , M. Leyla Yildiz və başqaları, İşletme Yönetimi, Aanadolu ün‹versitesi, 2014 |
| **13** | Təşkilatlarda insan resurslarının idarə edilməsi məsələləri. | İnsan resurslarının idarə edilməsində stratejiyanın yeri və rolu. İnsan resurslarının idarə edilməsi funksiyaları.<br>Sənaye müəssisələrində İnsan Resursları Departamentinin yeri və rolu. | 1.Quliyev. T.Ə. İnsan Resurslarının idarə edilməsi/ Bakı-2013.<br>2. Şahbazov K.A., Məmmədov M.H., Həsənov H.S. Menecment. Bakı: «Təhsil» EİM, 2005. (fəsil 13);<br>3.Акимова Т.А. Теория организаций. М.: ЮНИТИ-ДАНА. 2005, - 367 с. |

| | | | |
|---|---|---|---|
| 14 | Təşkilatlarda idarəetmə problemləri | İnformasiyanin idarə edilməsi; Müqavilələrin idarə edilməsİ; Fərqlərin idarə edilməsi; Böhranların idarə esilməsi; Məsuliyyətin idarə edilməsİ; Risklərin idarə edilməsi Brendin idarə edilməsi; Stressin İdarə Edilməsi; Dəyişikliklərin idarə edilməsi. | 1. Prof.Dr. Sadi Can Saruhan , M. Leyla Yildiz və başqaları, İşletme Yönetimi, Aanadolu ün‹versitesi, 2014<br>2.Акимова Т.А. Теория организаций. М.: ЮНИТИ-ДАНА. 2005, - 367 с.<br>3.Л. Семиков, В. Д. Ушаков Теория организаци Москва 2010, |
| **15** | Gələcəyin təşkilatları | Yeni təşkilatlara tələblər. Yeni təşkilatların xüsusiyyətləri; Bilik təşkilatın inkişafı üçün əsasdır; Yeni təşkilatların struktur növləri; Şəbəkə təşkilatları ; Şəbəkə təşkilatlarının fərqləndirici xüsusiyyətləri; Virtual təşkilatlar; Çoxölçülü təşkilatlar ; Çoxölçülü təşkilatın təmsil olunması; Dairəvi təşkilatlar; Tədris təşkilatları Tədris təşkilatlarının fəaliyyət prinsipləri. | 1. Владимир Веснин: Теория организации. Учебник, Издательство: Проспект, 2022 г.<br>2.Л. Семиков, В. Д. Ушаков Теория организаци Москва 2010,<br>3. Prof.Dr. Sadi Can Saruhan , M. Leyla Yildiz və başqaları, İşletme Yönetimi, Aanadolu ün‹versitesi, 2014<br>4.Акимова Т.А. Теория организаций. М.: ЮНИТИ-ДАНА. 2005, - 367 с. |
| | **Yekun imtahan** | | |

## XII. Seminar-məşğələlər: hazırlıq və qiymətləndirmə

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;
2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;
3) Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;
4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxış hazırlamalı;
5) Mövzu üzrə verilən praktik tapşırıqları və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

Tələbənin məşğələdəki hər bir cavabı 10 ballıq sistem üzrə 0-10 bal arasında (maksimum 10 bal olmaqla) qiymətləndirilir. Semestrin sonunda smestr ərzində tələbənin bütün cavab balları toplanır və tələbənin cavablarının ümumi sayına bölünməklə orta qiymət (bal)

hesablanır.

## XIII. Fənn üzrə kurs işi

Fənn üzrə kurs işi nəzərdə tutulmayıb.

## XIV. Sərbəst işlər: tələblər və qiymətləndirmə

Semestr ərzində tələbələrə 1 (10 ballıq), 2 (hər biri 5 ballıq) yaxud 10 (hər biri 1 ballıq) sərbəst iş tapşırığı verilir. Sərbəst işlər tələbələr tərəfindən təkbaşına və ya qrup işi formasında işlənə bilər. Sərbəst iş çap və ya elektron formada, yaxud əlyazma şəklində təhvil verilir.

Sərbəst işlərin qiymətləndirilməsi onların sayından asılı olaraq həyata keçirilir:

- 1 ballıq sərbəst işlər hər bir tələbə tərəfindən fərdi qaydada yerinə yetirilir. Bu işlər bir qayda olaraq fənndə tədris olunan mövzulara aid olur. Tələbələr müvafiq mövzunu öyrənməli və həmin mövzu ilə bağlı özlərinin fikirlərini sərbəst şəkildə (esse kimi) yazmalıdırlar. Belə sərbəst işlərin hər biri yazılı formada - word faylı formatında (şrift 12), həcmi ən azı 1,5-2 səhifə həcmində olmaqla (amma 4 səhifədən çox olmamaqla) - tələbənin fərdi kabinetinə yüklənir. Məzmunundan asılı olaraq belə işlər «0» və ya «1» balla qiymətləndirilir. İş «0» balla qiymətləndirildikdə müəllim bunun səbəbini izah etməlidir;
- 5 və 10 ballıq sərbəst işlər tələbələrə fərdi və ya qrup işi kimi tapşırıla bilər. Belə işlərdə konkret mövzular üzrə araşdırmanın aparılması yaxud referatın işlənilməsi tələb oluna bilər. Belə araşdırmalar zamanı tələbələr fənnin mövzularından öyrəndikləri bilikləri və əldə etdikləri bacarıqları həmin tədqiqatlarda istifadə (tətbiq) etməyə çalışmalıdırlar. Araşdırmalar zamanı tələbələr ortaya çıxan çətinlikləri müəllimlə müzakirə edə və ondan məsləhət ala bilərlər. Belə işlər yazılı şəkildə word faylı formatında yaxud Power Point formatında təqdimat formasında, qrupun bütün üzvlərinin adı qeyd edilməklə, qrupun hər bir üzvünün fərdi kabinetinə yüklənir. Bu cür işlər, müvafiq olaraq, 0-dan 5-dək yaxud 0-dan 10-dək balla qiymətləndirilir. Sərbəst işin (araşdırmanın) hazırlanmasında qrup üzvlərinin fərdi töhfələri fərqli olarsa, qiymətləndirmədə bu nəzərə alınır. Aşağı balla qiymətləndirmələr zamanı müəllim bunun səbəbini tələbənin fərdi kabinetində izah edir.

Sərbəst işlərin yerinə yetirilməsi Universitetdə müəyyən edilmiş qaydalar çərçivəsində fənni tədris edən müəllimlə tələbələr arasında əldə olunan razılığa uyğun olaraq həyata keçirilir. Sərbəst işlərin qiymətləndirilməsində şəffaflığı təmin etmək müəllimin vəzifə borcudur.

## XV. Dərsə davamiyyət

Tələbə bütün mühazirə və seminar dərslərində fəal iştirak etməlidir. Tələbənin dərsə davamiyyəti 10 ballıq sistem üzrə qiymətləndirilir. Tələbənin iştirak etmədiyi dərslərin sayı onun davamiyyət qiymətinə (balına) təsir edir: buraxılmış hər 3 dərs (6 saat) 1 balın itirilməsi ilə nəticələnir. Tələbə fənn üzrə ümumi tədris yükünün 25%-dən çox (14 saatdan çox) dərs buraxarsa, o, yekun imtahana buraxılmır. Bu halda tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır

## XVI. Aralıq qiymətləndirmə

Fənnin tədrisi prosesində tələbənin dərslərdəki cari fəallığı (mühazirədəki fəallıq, seminar-məşğələdə cavabları, qrup işlərində iştirakı və s.) 10 ballıq sistemlə 0-10 bal arasında qiymətləndirilir.

Fənnin tədrisi prosesində tələbənin əldə etdiyi bilik və bacarıqları 2 dəfə kollokvium keçirilməklə qiymətləndirilir. Kollokviumlar, müvafiq olaraq, tədrisin birinci və ikinci ayı başa çatdıqdan sonra yalnız həmin dövrdə keçirilən mövzuları əhatə edən suallar əsasında təşkil olunur. Kollokvimlar test üsulu formasında keçirilir.

Hər kollokviumda tələbənin bilikləri 10 ballıq sistem üzrə 0-10 bal arasında (maksimum 10 bal) qiymətləndirilir. Tələbə kollokviumda iştirak etmədikdə jurnalda “0” (sıfır) bal qeyd olunur.

**XVII. Yekun imtahan**

Fənnin tədrisinin sonunda bir dəfə yekun imtahan təşkil olunur. Tələbənin imtahandakı cavabı 0-50 bal aralığında (maksimum 50 bal) qiymətləndirilə bilər. İmtahan yazılı formada yaxud test qaydasında təşkil olunur. Fənn üzrə imtahan sualları yaxud testlər mühazirə mətnləri və məşğələ dərslərinin məzmununa uyğun olaraq tərtib edilir.

Yekun imtahanda tələbə minimum 17 bal toplamazsa, onda imtahana qədər yığılan ballar toplanmır, tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.

İmtahanın nəticələrinin qiymətləndirilməsi ilə bağlı tələbənin hər-hansı şikayəti olarsa, tələbə Universitetdə müəyyən olunmuş ümumi qaydalar əsasında Apellyasiya Komissiyasına müraciət edə bilər.

**XVIII. Fənn üzrə yekun qiymətləndirmə**

Fənn üzrə tələbələrin yekun biliyi 100 ballıq sistem üzrə qiymətləndirirlir. Balların maksimum miqdarı -100 baldır.

Yekun imtahandan sonra tələbənin fənn üzrə topladığı bütün ballar toplanır və yekun qiymət (bal) hesablanır.

| İstiqamət | Ballar | Faiz |
|---|---|---|
| İmtahan (final) | 50 | 50 % |
| İmtahan (aralıq) | 30 | 30 % |
| Seminar (məşğələ) və ya laborator dərslərin nəticələrinə görə | 20 | 20 % |
| **Cəmi:** | **100** | **100 %** |

Fənn üzrə semestr ərzində (imtahana qədər və imtahanda) tələbənin topladığı balın yekun miqdarına görə onun yekun biliyi aşağıdakı kimi qiymətləndirilir:

51 baldan aşağı olduqda - “qeyri-kafi” – **F**
51-60 bal - “qənaətbəxş” – **E**
61-70 bal - “kafi” – **D**
71-80 bal - “yaxşı” – **C**
81-90 bal - “çox yaxşı” – **B**
91-100 bal - “əla” – **A**

Tələbənin topladığı yekun bal 51 baldan aşağı olduqda (yəni onun biliyi “qeyri-kafi” qiymətləndirildikdə) tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.

**Tərtib etdi:**  **Prof. Rövşən Muradov**